Bülleten No: 22 / oktyabr 2014

Elektron Hökumət Portalı

your gateway to all public services

AZƏRBAYCAN RESPUBLİKASI
RABİTƏ VƏ YÜKSƏK
TEXNOLOGİYALAR NAZİRLİYİ

www.e-gov.az

OKTYABR 2014

# Elektron Hökumət Bülleteni



## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə



VAXTA QƏNAƏT



ŞƏFFAF



ƏLVERİŞLİ



RAHAT



ISO 9001 SYSTEM CERTIFICATION SGS

UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# Prezident İlham Əliyev və xanımı IV Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimində iştirak etmişlər






**Oktyabrın 2-də Heydər Əliyev Mərkəzində IV Bakı Beynəlxalq Humanitar Forumu işə başlamışdır.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Forumun rəsmi açılış mərasimində iştirak etmişdir.

Bakı Beynəlxalq Humanitar Forumu ən geniş humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir məkandır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir.

Forum XXI əsrdə bəşəriyyətin qarşısında duran qlobal çağırışlara cavab axtarmaq, humanitar əməkdaşlıqla bağlı ən mühüm məsələlərə dair geniş spektrli dialoqlar, fikir mübadilələri və müzakirələr aparmaq üçün beynəlxalq miqyasda nüfuzlu elmi-siyasi platformadır.

Dördüncü Bakı Beynəlxalq Humanitar Forumunda dünyanın 60-dan çox ölkəsindən 500-ə yaxın qonaq iştirak etmişdir.

Dövlətimizin başçısı Forumun açılışında nitq söyləmişdi.

Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri xanım Valentina Matviyenko Prezident Vladimir Putinin Forum iştirakçılarına təbrik məktubunu oxuyub və çıxış edib.

Sonra BMT-nin İnkişaf Proqramının rəhbəri xanım Helen Klark çıxış etmişdir.

UNESCO-nun baş direktoru xanım İrina Bokovanın Forum iştirakçılarına videomüraciəti göstərilmişdir.

Daha sonra ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri çıxış etmişdir.

Forum işini plenar iclasla davam etmişdir.

# Azərbaycan Respublikası Prezidentinin imzaladığı 11 sentyabr 2014-cü il tarixli Fərmana əsasən yaradılacaq Elektron Reyestrdə dövlət qurumları göstərdikləri bütün xidmətləri açıqlayacaq

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 11 sentyabr 2014-cü il tarixli Fərmanı ilə dövlət orqanları tərəfindən həyata keçirilən xidmətlər haqqında məlumatların vahid mənbədə toplanması və sistemləşdirilməsi, xidmətlərin göstərilməsində təkrarlığın aradan qaldırılması və yeni növ xidmətlərin yaradılması yolu ilə bu sahədə idarəetmənin çevikliyinin təmin edilməsi, xidmətlər üzrə təhlil və proqnozlaşdırma imkanlarının artırılması məqsədi ilə dövlət orqanları tərəfindən həyata keçirilən bütün xidmətlərin Elektron Reyestri yaradılacaq.

Beləliklə, dövlət qurumlarının hazırda göstərdikləri elektron xidmətlərlə yanaşı, həm də klassik üsulla göstərilən və hələ də elektronlaşdırılmamış xidmətlərin də reyestri formalaşdırılmış olacaq. Bu da, öz növbəsində, dövlət orqanlarının öz xidmətlərini elektronlaşdırmaq marağını artıracaq və yaqin ki, onların qarşısında konkret tələblər qoyulacaq. Çünki reyestrin formalaşdırılmasından sonra mütəmadi olaraq aparılacaq monitorinqlər və müqayisələr dövlət qurumlarının göstərdiyi xidmətlərdən hansılarının elektronlaşdırıldığını, hansılarının isə elektronlaşdırılmasının prioritet olduğunu müəyyənləşdirəcəkdir.

Məlum olduğu kimi bu gün ölkəmizdə "Elektron hökumət" yeni inkişaf mərhəsinə qədəm qoyub və elektronlaşdırılan hər bir xidmət ölkə əhalisinin rifahına və firavanlığına xidmət edir.

www.e-gov.az

# "Elektron hökumət" idarəçiliyi və Azərbaycan

**Bütün dünyada dövlət idarəçiliyi strukturunun optimallaşdırılmasına yönələn IT-layihələrinin həyata keçirilməsi reallaşdırılmaqdadır. Belə layihələr ümumi şəkildə "elektron hökumət" (e-government) adlanır və buraya əhəmiyyətinə görə hakimiyyətin müxtəlif səviyyələrində, yerli idarəetmə orqanlarında çağrı mərkəzlərinin və rəsmi saytların yaradılmasından başlayaraq, dövlət qurumlarında kağızsız sənəd dövriyyəsi və internet üzərindən seçkilərin təşkil olunmasınadək çoxsaylı tədbirlər aiddir.**

"Elektron hökumət" sistemi İKT-nin tətbiqi ilə dövlət qurumları arasında qarşılıqlı fəaliyyəti, idarəçilik keyfiyyətlərinin artırılmasını təmin etmək üçün vahid dövlət kompüter sistemini, hakim və qanunverici orqanların internet resurslarını, korporativ tipli dövlət idarəetmə sistemini, dövlət informasiya sistemlərini və s. özünə komponent kimi daxil etməlidir. Bu sistem vasitəsilə vətəndaşların informasiya əldə etməsi üçün resurslardan bərabər qaydada istifadəsi, elektron qaydada dövlət sifarişlərinin təminatı, nəzarət və maliyyə funksiyalarının məsafədən həyata keçirilməsi, idarəetmə qərarlarının qəbulunda operativliyin və effektivliyin artırılması, korrupsiya ilə mübarizə və s. kimi problemlər öz həllini tapmalıdır.

**"Elektron hökumət" layihəsi bir neçə mərhələdə həyata keçirilir və bu proses bir neçə il çəkə bilər.**

- Birinci mərhələdə dövlət orqanları interneti mənimsəməyə başlayır və milli şəbəkə seqmentində müxtəlif müəssisələrin bir sıra saytları yaradılır. Lakin bu saytlar sırf informasiya emalı funksiyasını daşıyır.

- İkinci mərhələdə sözü gedən saytlarda yenilənən kontentin həcmi artır. Orada xəbərlər, hüquqi sənədlər və rəsmi elanlar yerləşdirilir, yeni xidmətlərin hesabına işin rahatlığı artır (misal olaraq sayt üzrə axtarışı göstərmək olar), interaktivliyin qismən təmin olunması (vətəndaş-qurumlarla əks əlaqənin yaradılması üçün vacib olan elektron poçt) baş verir və s.

- Üçüncü mərhələdə saytların yüksək səviyyəli interaktivliyi həyata keçirilir. Dövlət portalları biznes sektorunun və vətəndaşların konkret kateqoriyalı nümayəndələrinə müxtəlif təkliflər edir, autentifikasiya mexanizmləri tədbiq olunur.

- Dördüncü mərhələdə istifadəçilər qarşılıqlı əlaqə imkanları əldə edib və elektron müraciət edə bilirlər. Vətəndaşlar internet vasitəsi ilə müxtəlif sənədlər (şəhadətnamələr, lisenziyalar, sertifikatlar, qarşılıqlı icazələr və s.) əldə edə bilir, eyni zamanda dövlət orqanlarının təqdim etdiyi xidmətlərdən yararlanaraq, online ödənişlər edə bilirlər.

- Beşinci mərhələdə isə hökumət bütün hüquqi və fiziki şəxslər və sadə vətəndaşlar üçün onlayn sənəd mübadiləsi formasında e-xidmətlərin göstərilməsini həyata keçirir.

Azərbaycan "Elektron hökumət" layihəsinin reallaşdırılması üçün xeyli yol qət edib və demək olar ki, yuxarıda qeyd olunan 4 mərhələni uğurla başa çatdırıb. Hazırda 5-ci mərhələnin tam şəkildə həyata keçirilməsi üçün işlər müvəffəqiyyətlə davam etdirilir.

Təsadüfi deyil ki, Birləşmiş Millətlər Təşkilatının apardığı tədqiqatın nəticəsinə uyğun olaraq, 2014-cü ildə "Elektron Hökumət"in inkişaf səviyyəsinə görə dünya ölkələri üzrə reytinq cədvəlində Respublikamız 193 ölkə arasında 68-ci yeri tutmuşdur. Qeyd edək ki, reytinqdə Azərbaycan bu sahədə daha çox illər təcrübəsi olan Serbiya, Çin, Türkiyə, Bolqarıstan və s. kimi ölkələrdən öndədir.

"Elektron Hökumət" sisteminin daha da inkişaf etdirilməsi və ölkəmizin bu sahədə dünya ölkələri arasında özünə layiqli yer tutması üçün görülən məqsədyönlü tədbirlər və bu proseslərə dövlətimizin yaxından dəstəyi əminliklə söyləməyə əsas verir ki, bu sistem uğurla inkişaf edəcək və ölkə vətəndaşlarının rahatlığına və rifahına xidmət edəcək.

# Albaniya Azərbaycanın "elektron hökumət" modelindən yararlana bilər

Albaniyanın innovasiya və dövlət idarəçiliyi naziri Milena Harito Azərbaycana səfəri çərçivəsində Rabitə və Yüksək Texnologiyalar naziri Əli Abbasovla görüşüb. Nazirlikdən verilən məlumata görə, Ə.Abbasov Azərbaycanda Rabitə və Yüksək Texnologiyalar sektorunda həyata keçirilən islahatlar, regional və beynəlxalq əhəmiyyətli layihələr və əldə olunan uğurlarla bağlı qonağa ətraflı məlumat verib. O, albaniyalı həmkarını iki ölkə arasındakı münasibətləri daha da dərinləşdirmək məqsədilə bu ilin 2-5 dekabr tarixlərində keçiriləcək "Bakutel" sərgi-konfransı çərçivəsində Beynəlxalq Telekommunikasiya İttifaqı, Ümumdünya İqtisadi Forum və Azərbaycan hökumətinin iştirakı ilə reallaşacaq "Əşyaların İnterneti" beynəlxalq tədbirin Nazirlər Konfransına dəvət edib.

Görüşdə M. Haritonun Azərbaycana edəcəyi növbəti səfərində iki ölkə arasında rabitə və yüksək texnologiyalar sahəsində hüquqi bazanın və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində Anlaşma Memorandumunun imzalanması məsələsinin müzakirə edilməsi qərara alınıb.

M. Harito isə öz növbəsində Azərbaycanın elektron hökumət, informasiya-kommunikasiya və yüksək texnologiyalar sahəsində həyata keçirdiyi tədbirlərin Qərbdə, xüsusilə də Albaniyada böyük maraqla izlənildiyini qeyd edib. O, rəsmi Bakının uğurlu təcrübəsindən yararlanmağın Albaniya üçün faydalı olacağını bildirib.

Azərbaycan haqqında geniş məlumat əldə etməsindən məmnunluğunu ifadə edən M. Harito gələcəkdə əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

# "Elektron Hökumət Portalının" nümayəndə heyəti İstanbulda keçirilmiş "CeBİT– 2014" sərgisində iştirak edib

**Cari ilin 11-14 sentyabr tarixlərində Türkiyə Respublikasının İstanbul şəhərində keçirilmiş "CeBİT – 2014"(Bilgi və Rabitə Texnologiyaları, Telekommunikasiya, Proqramlaşdırma, Peyk Rabitəsi, Yayım, Kabel, Televiziya və Xəbərləşmə Sektoru üzrə Beynəlxalq Sərgi və Konfrans) adlı tədbirdə Azərbaycan Respublikasının nümayəndə heyətinin tərkibində "Elektron Hökumət Portalının" təmsilçiləri də iştirak etmişdir.**

Dörd gün davam edən sərgidə nümayəndə heyəti "Elektron hökumət" layihəsini təmsil etmiş, e-imzanı tanıtmışdır. "E-hökumət", ziyarətçilərin, xüsusən də xarici dövlətlərin struktur bölmələrində çalışanların böyük marağına səbəb olmuşdur. Nümayəndə heyətimiz ziyarətçilərə Azərbaycanda həyata keçirilən "E-hökumət" layihəsi barədə ətraflı məlumat vermiş, onları maraqlandıran sualları cavablandırmışdır.

Sərginin ilk günündə "CeBİT – 2014" tədbirində iştirak edən ölkələrin müvafiq dövlət qurumlarının rəhbərləri və yüksək vəzifəli şəxslə sərgi ilə tanış olmuş, Azərbaycana aid stendin qarşısında xatirə şəkli çəkdirmişlər.




Bununla yanaşı, sərgidə iştirak edən xarici ölkələrin "E-hökumət" təmsilçiləri ilə də görüşlər keçirilmiş, geniş fikir mübadiləsi aparılmış, hər iki dövlətin e-hökumətində mövcud olan müsbət xüsusiyyətlər və çatışmazlıqların aradan qaldırılması, eləcə də yeniliklərin tətbiqi imkanları müzakirə edilmişdir.

# Elektron imza kartlarının Hüquqi şəxslərə verdiyi imkanlar

**Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzinin Sertifikat Xidmətləri Mərkəzi (SXM) tərəfindən verilən elektron imza kartlarını alan Hüquqi şəxslər praktik olaraq bir sıra imkanlar əldə etmiş olacaqlar. Həmin imkanlardan bəzilərini aşağıda göstəririk:**

*- İstənilən dövlət qurumuna elektron müraciət edən zaman elektron imza və elektron sənəd haqqında qanuna əsaslanaraq elektron imza ilə imzalanmış sənədi göndərmək imkanı;*
*- Vergi hesab fakturalarının və bəyannamələrin göndərilməsi;*
*- İdxal-ixrac əməliyyatlarında gömrük hesabatlarının verilməsi;*
*- Dövlət Sosial Müdafiə Fondu üzrə məlumatların əldə edilməsi və müraciətlərin göndərilməsi;*
*- Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin xidmətlərinə əsasən kadrlar işinin təşkili, həmçinin əmək müqaviləsi bildirişlərinin informasiya sisteminə daxil edilməsi;*
*- "Elktron Hökumət" Portalında yerləşdirilmiş e-xidmətlərdən istifadə imkanı və portal üzərində icra olunan əməliyatlar üzrə təhlükəsizliyin təmin olunması;*
*- Vaxta qənaət;*
*- Sənəd dövriyyəsi zamanı süni əngəllərin, gecikmələrin, insan faktorunun minimuma endirilməsi;*
*- Müxtəlif əməliyyat sistemlərində sənədlərin icrasının sürətli təşkili və rahatlığın təmin edilməsi. Hüquqi şəxslər*




*SXM tərəfindən təqdim edilən elektron imza sertifikatları vasitəsilə Elektron Hökumət portalında (**www.e-gov.az**) autentifikasiyadan keçərək portalda təqdim olunan "Sahibkarlar" bölməsinə daxil olub müxtəlif sayda dövlət qurumlarının elektron xidmətlərindən yararlana bilər.*

Hüquqi şəxslər üçün elektron imsa kartının qiyməti 72 manatdır və Hüquqi şəxslər elektron imza sertifikatlarının sifarişi üçün Qeydiyat məntəqələrinə və ya **www.e-imza.az** saytına daxil olaraq onlayn şəkildə öz müraciətlərini göndərə bilərlər.

Qeyd edək ki, elektron imza kartını hüquqi şəxs 3 il müddətində istifadə edə bilər. Bu müddət ərzində elekton imza kartı ilə hər hansı problem yaranarsa, istifadəçi **"157"** zəng mərkəzinə müraciət edə bilər.

www.e-gov.az

# Fərdi məlumatlar üzrə elektron arayışın vətəndaş və təşkilatlara verdiyi üstünlüklər

"Elektron Hökumət" portalının təqdim etdiyi yeni "Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi" xidməti vətəndaşlardan dövlət və özəl qurumlar tərəfindən tələb olunan arayışların elektron şəkildə əldə edilməsi prosesini sadələşdirmək məqsədi üçün nəzərdə tutulub. Vətəndaş portala daxil olub, onlayn rejimdə bu xidmətdən istifadə edərək özünə aid fərdi məlumatlar barədə elektron arayışı istədiyi dövlət və ya özəl təşkilatlara göndərmək imkanını əldə etmiş olur. Bu xidmətdən istifadə etmək üçün vətəndaş "Elektron Hökumət" portalında autentifikasiyadan keçməlidir. İstifadəçi öz seçiminə uyğun autentifikasiya vasitəsindən kecdikdən sonra xidmətdən yararlana bilər və bu zaman portal artıq öz istifadəçisini identifikasiya etdiyi üçün elektron xidmətdən istifadə zamanı vətəndaşın fərdi məlumatları elektron xidmətdə öz əksini tapır. İistiafdəçi elektron arayışını təşkilata göndərdikdən sonra mütəxəssislər vətəndaşla əlaqə saxlayaraq elektron arayışın icra statusu haqqında məlumat verirlər.

**Hazırda "Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi" elektron xidmətində 7 dövlət qurumu tərəfindən vətəndaş haqqında məlumatlar təqdim olunur:**

*- Daxili İşlər Nazirliyi;*
*- Dövlət Sosial Müdafiə Fondu.*
*- Rabitə və Yüksək Texnologiyalar Nazirliyi;*
*- Prezident yanında Dövlət Qulluğu Məsələri üzrə Komissiya;*
*- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi;*
*- Təhsil Nazirliyi*
*- Səhiyyə Nazirliyi*

Gələcəkdə daha cox qurumların vətəndaş haqqında məlumat təqdim etməsi nəzərdə tutulub.

**Elektron arayış sisteminin vətəndaşlar üçün bir sira üstünlükləri var:**

*- Vətəndaşın sutkanın 24 saatı ərzində, istədiyi vaxtda təşkilata onlayn müraciət göndərə bilməsi imkanı;*

*-Vətəndaş üçün vaxt itkisinin aradan qaldırılması və rahatlığın təmin edilməsi;*

*- Bürokratik proseslərin aradan qaldırılması;*

*- İşlədiyi müəssisədən arayışın alınmasına zərurətin yaranmaması.*

*Eyni zamanda bu xidmətin tətbiqindən istifadə edən təşkilatlar da aşağıdakı üstünlükləri əldə etmiş olurlar:*

*-Vaxt itkisinin aradan qaldırılması və rahatlığın təmin edilməsi;*

*- Vətəndaşın fərdi məlumatlarının dəqiq göstərilməsinə əminliyin olması;*

*- Elektron arayış sistemi vasitəsi ilə təşkilata saxta arayışın təqdim edilməsinin tam aradan qaldırılması;*

*- Vətəndaşlar tərəfindən şişirdilmiş əmək haqlarının göstərilməsinin qarşısının alınması;*

*- Əlavə olaraq vətəndaşın iş stajı, iş yeri, vəzifəsi ilə bağlı məlumatlar əldə etmək imkanının yaradılması.*

# "Bank of Baku" krediti elektron arayışla verir

*"Bank of Baku" Azərbaycanda ilk dəfə olaraq kredit rəsmiləşdirilməsi üçün elektron arayışdan istifadəyə başlayıb. Bu yenilik "Bank of Baku"nun "Elektron Hökümət" portalı ilə əməkdaşlığı sayəsində baş tutub. Müvafiq müqavilə Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi və "Bank of Baku" arasında imzalanıb.*

Bank of Baku
SİZƏ YAXIN BANKÇILIQ

**Elektron arayışla kredit necə veriləcək?**

Yeni qaydaya görə, müştəri **www.e-gov.az** elektron hökumət portalına daxil olaraq "Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi" xidməti vasitəsilə elektron arayış formalaşdırıb banka göndərir. Elektron portala daxil olmaq üçün elektron imza sertifikatı, ASAN imza və ya kod parollardan istifadə etmək olar. Kod parolu almaq üçün vətəndaş elektron portalda online qeydiyyat xidmətindən istifadə edə bilər. Kod parolu həmçinin Bakı şəhərində və rayon mərkəzlərində bütün poçt şöbələrində ödənişsiz olaraq əldə etmək olar.

**Kod parolu "Bank of Baku"da da almaq olar**

Müqavilə şərtlərinə əsasən bankın filiallarında Məlumat Hesablama Mərkəzinin qeydiyyat məntəqələri də fəaliyyətə başlayır. Nəticədə müştəri kod parol olan zərfləri bank filiallarından da əldə edə bilər. Bunun üçün şəxsiyyət vəsiqəsini təqdim etmək kifayətdir. Şifrəni alan müştəri "Elektron Hökümət" portalında öz şəxsi kabinetinə daxil olub elektron arayış göndərə bilər. Müştəri fərdi məlumatlar üzrə elektron arayışı evindən, iş yerindən və yaxud bankda bu layihə üçün quraşdırılmış xüsusi kompüter vasitəsilə də göndərə bilər.

**Kreditlər elektron arayışa görə veriləcək**

Göndərilən arayışlar "Elektron hökümət" tərəfindən onlayn qaydada imzalanır. Bankla iş tarixçəsindən və ödəniş qabiliyyətindən asılı olaraq ona nağd kredit, Bolkart və ya imtiyazlı "Dostlar Klubu" kartları təklif olunur. Artıq "Bank of Baku"-nun baş ofisində (Atatürk pr. 42) elektron arayışların verilməsinə başlanıb. Cari ay ərzində isə bu xidmət bankın filiallarında da həyata keçiriləcək. "Bank of Baku"-nun "Elektron Hökümət" portalı ilə əməkdaşlığı çərçivəsində yaxın zamanlarda yeni innovativ layihələr təqdim ediləcək.

# Saxta diplomların qarşısını almaq olarmı?



...

*Keçmiş Sovetlər Birliyinə daxil olan ölkələr istisna olmaqla dünya ölkələrinə nəzər saldıqda görərik ki, həmin ölkələrdə saxta diplomlara çox nadir hallarda rast gəlinir. Çünki bu ölkələrdə diplom bir o qədər əhəmiyyət daşımır. İşəgötürən tərəf mütəxəssisin bilik və bacarığına daha çox üstünlük verir. Xaricdə təhsil alan məzunlardan aldığımız məlumata əsasən deyə bilərik ki, diplomların həqiqiliyinin yoxlanılması mexanizmləri dünya ölkələrində müxtəlif formalarda həyata keçirilir. Ancaq araşdırmalarımız zamanı bizə o da məlum oldu ki, maraqlandığımız bütün ölkələrdə universitetləri bitirən məzunlarla bağlı məlumat bazası yaradılıb. Bu bazadan həm də diplom saxtakarlığının qarşısının alınmasında istifadə olunur. Həmin bazada məzunun universitetdə təhsil aldığı illərlə bağlı mühüm məlumatlar (daxil olma və bitirmə tarixləri, təhsil müddətində nailiyyətləri, bəzi müəllim və professorlar tərəfindən verilən rəylər, şəxsi məlumatlar və s.) yerləşdirilir. Bu bazadan istifadə edən ölkələrdə müxtəlif formalarda - ictimaiyyət üçün açıq, yaxud qapalı (ancaq rəsmi qurumların və məzunların sorğusu əsasında) həyata keçirilir. Məlumat bazası diplom verən universitet, yaxud bu sahəyə rəhbərlik edən təhsil qurumlarında yaradılır.*

**İnkişaf etmiş ölkələrin təcrübəsindən nümunələr**

Məsələn, Almaniyada xüsusi bir proqram var. Bu proqram yalnız müvafiq dövlət qurumlarında şifrəli baza olaraq kompüterlərə yüklənir. Hər bir universitet məzunlarının siyahısı və diplomların şifrəsi həmin bazaya daxil edilir. İşəgötürən diplomun düzgünlüyünü yoxlamaq üçün müvafiq təşkilata müraciət edir. Bununla da diplomun düzgünlüyü haqda dəqiq məlumat ala bilir. ABŞ-da isə proses bir az fərqlidir. Belə ki, hər universitetdə ayrıca məzunlar bazası yaradılır. Bu bazada məzunlar haqqında bütün zəruri məlumatlar yerləşdirilir və maraqlı tərəflər bazaya asanlıqla daxil olmaqla həmin məzun haqqında ətraflı bilgi əldə edə bilir. Hətta universitet müəllimlərinin həmin məzun haqqında fikirlərini də öyrənə bilərlər. İtaliyada da bu proses demək olar ki, ABŞ-dakı kimidir. İtaliyanın Milan Politexnik Universitetində təhsil alan həmyerlimizdən aldığımız məlumata görə, universitetin bazasında hər bir tələbə və məzun haqqında ətraflı məlumat yerləşdirilir. Ancaq həmin baza şifrəlidir. Bu şifrəni yalnız tələbə və ya məzun, həmçinin universitetin müvafiq əməkdaşları bilir.

Bəzi ölkələrdə isə ümumiyyətlə diplomun saxta və ya düzgünlüyünü öyrənmək mexanizmi məxfi saxlanılır. Həmin ölkələrdəki mütəxəssislər düşünürlər ki, mexanizmi açıqlamaqla saxta diplomların meydana gəlməsinə zəmin yarada bilərlər.

Araşdırmalarımız göstərdi ki, bu işdə inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə edərək müəyyən mexanizmin yaradılması zəruridir. Bu elə bir mexanizm olmalıdır ki, istər işəgötürən, istərsə də ali təhsil müəssisəsini bitirən vətəndaş şəffaf və operativ məlumat ala bilsin. Məsələn, respublikamızın ucqar rayonlarından bir vətəndaş diplomunun düzgünlüyünü təsdiq etmək üçün paytaxta gəlib vaxt itirməsin. Müvafiq orqana müraciət etmədən, elektron qaydada daha rahat və şəffaf məlumat alsın.

Təhsil Nazirliyindən aldığımız məlumata görə, saxta sənədlərlə bağlı problemlərin nizama salınması məqsədilə təhsil naziri müvafiq əmr imzalayıb. Hazırda müvafiq qurumlar diplom bazasının yaradılması üzərində iş aparır.

*"Azərbaycan müəllimi"*

# Təhsil Nazirliyinin daha bir elektron xidməti "Elektron Hökumət" portalına inteqrasiya edildi

**Qurumun göstərdiyi "Diplom haqqında məlumatlar" xidməti də artıq portal üzərindən əhalinin istifadəsinə verilib. Bu xidmət vasitəsilə vətəndaşlar öz diplomları barədə məlumatı 2 cür əldə edə bilərlər:**

*1. Diplomun seriya və nömrəsini daxil etməklə;*
*2. Şəxsiyyət vəsiqəsinin nömrəsinə görə. Bu zaman portalda autentifikasiyadan keçmiş vətəndaşın şəxsiyyət vəsiqəsinin nömrəsi və FİN-i avtomatik təyin olunur.*

Bununla Təhsil Nazirliyinin "Elektron Hökumət" portalına inteqrasiya edilmiş e-xidmətlərinin sayı 3-ə çatmışdır.

Qeyd edək ki, elektronlaşdırılan xidmətlərin çeşidinin və keyfiyyətinin artırılması istiqamətində "Elektron Hökumət" portalı digər qurumlarla da birgə fəaliyyətini davam etdirir.

www.e-gov.az

# Ədliyyə Nazirliyinin yeni elektron xidmətləri "Elektron Hökumət" portalına inteqrasiya edildi

**Ədliyyə Nazirliyinin "Elektron Hökumət" portalında olan bəzi elektron xidmətləri yenilənməklə yanaşı, portala yeni xidmətlər də inteqrasiya edilmişdir.**

Qurumun göstərdiyi "Nikahın qeydiyyatı üçün elektron müraciət", "Mətbu nəşrlərin uçotu üçün müraciətin və sənədlərin qəbulu" , "Atalığı müəyyən etmək üçün elektron müraciət", "Nikahın pozulması üçün elektron müraciət", "Doğumun qeydiyyatı üçün elektron müraciət", "Soyadın, adın, ata adının dəyişdirilməsi üçün elektron müraciət", "Ölüm haqqında aktın alınması üçün elektron müraciət" və "Azərbaycan Respublikasının vətəndaşlarına, həmçinin Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslərə fərdi identifikasiya nömrəsi barədə məlumatın verilməsi" xidmətləri də artıq portal üzərindən əhalinin istifadəsinə verilib.

Bununla Ədliyyə Nazirliyinin "Elektron Hökumət" portalına inteqrasiya edilmiş e-xidmətlərinin sayı 20-yə çatmışdır.

Qeyd edək ki, elektronlaşdırılan xidmətlər ölkə vətəndaşlarının "Elektron hökumət" portalından istifadəsini daha da genişləndirir və elektronlaşdırılan hər bir xidmət ölkə əhalisinin rifahına və firavanlığına xidmət edir.

# "Elektron hökumət" portalına Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yeni e-xidmətləri əlavə edilib

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 4 yeni elektron xidməti "Elektron hökumət" portalı üzərindən ictimaiyyətin istifadəsinə verilib. Bu e-xidmətlərə "Milli parklara onlayn bilet satışı", "Ətraf mühit və təbii sərvətlərlə bağlı məlumatın verilməsi", "Meşə məhsulları və dərman bitkilərinin onlayn satışı" və "Cərimə, ziyan və ödəmələrin internet vasitəsi ilə ödənilməsi" daxildir.**

Birinci qeyd etdiyimiz xidmət milli parklara onlayn bilet satışı qaydasını nəzərdə tutur. "Ətraf mühit və təbii sərvətlərlə bağlı məlumatın verilməsi" xidməti ətraf mühit və təbii sərvətlərlə bağlı məlumatların verilməsi üçün müraciətin və tələb olunan sənədlərin elektron formada qəbul edilməsindən və nəticəsi barədə istifadəçiyə məlumat verilməsindən ibarətdir. "Meşə məhsulları və dərman bitkilərinin onlayn satışı" xidməti meşə məhsulları və dərman bitkilərinin elektron satışı üçün müraciətin və tələb olunan sənədlərin elektron formada qəbul edilməsi və nəticəsi barədə istifadəçiyə məlumat verilməsi prosedurunu əhatə edir. Sonuncu xidmətin göstərilməsi nəticəsində isə istifadəçi cərimə, ziyan və ödəmələri internet vasitəsi ilə elektron qaydada ödəyir.

Qeyd edək ki, artıq Ekologiya və Təbii Sərvətlər Nazirliyinin "Elektron hökumət" portalında təqdim olunan elektron xidmətlərinin sayı 18-ə çatdırılıb.

# ƏƏSMN-nin elektron informasiya sisteminə daxil edilən əmək müqaviləsi bildirişlərinin sayı bir milyonu ötüb

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) elektron informasiya sisteminə (EİS) əmək müqaviləsi bildirişlərinin daxil edilərək qeydiyyatdan keçirilməsi prosesi günbəgün sürətlənir. Belə ki, bu gün EİS-ə daxil edilən əmək müqaviləsi bildirişlərinin sayı artıq bir milyonu (1 milyon 1976 bildiriş) ötüb.**

Bu islahat tədbirinin uğurla həyata keçirilməsi Azərbaycan Prezidentinin 2014-cü il 3 fevral tarixli Fərmanına əsasən, cari ilin 1 iyulundan tətbiqinə başlanılan əmək müqaviləsi bildirişi üzrə EİS-nin işçi və işəgötürənlərin maraq və mənafelərini aydın şəkildə əks etdirdiyini, onun texniki infrastrukturunun mükəmməl şəkildə hazırlandığını təsdiq edir. Yalnız onu qeyd etmək kifayətdir ki, prosesə başlandığı ilk günlərdən "Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi" e-xidməti "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə edilən elektron xidmət növləri sırasında qərar tutub.

AZDATACOM
Milli Telekommunikasiya Operatoru
internetin dəqiq ünvanı

AzDataCom şəbəkəsi !
Fiziki və hüquqi şəxslərə ən son texnologiyalara əsaslanaraq ADSL, korporativ şəbəkələrin yaradılması, məlumatların ötürülməsi və digər texnoloji həlləri təqdim etməklə sizin xidmətinizdədir.



# Vətəndaşlar fərdi identifikasiya kartı ilə təmin olunacaqlar



*Son illər biometrik eyniləşdirmə sisteminin qurulması istiqamətində əsaslı işlər görülüb, müvafiq qanunvericilik bazası yaradılıb, vətəndaşların şəxsiyyətini təsdiq edən elektron sənədlərin tətbiqinə başlanılıb. Həmçinin vətəndaşların fərdi identifikasiya kartı ilə təmin olunması nəzərdə tutulub.*



Kartda doğum haqqında, eləcə də elektron sağlamlıq kartındakı informasiyalar, 5 yaşından sonra üzərində fotoşəkil və hər bir şəxslə bağlı fərdi dolğun məlumatlar əks olunacaq. Bu barədə Ədliyyə Nazirliyində nazir Fikrət Məmmədovun sədrliyi ilə keçirilən kollegiya iclasında məlumat verilib.

Nazirlikdən bildirilib ki, iclasda “15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartı haqqında” Qanunun tətbiqi ilə bağlı ölkə Prezidenti cənab İlham Əliyevin 2014-cü il 9 sentyabr tarixli fərmanlarından irəli gələn vəzifələrin icrası üzrə tədbirlər müzakirə olunub.

Bununla əlaqədar dövlət başçısının tapşırıqlarına əsasən Ədliyyə Nazirliyinə yeni vəzifələr həvalə olunub və kollegiyada kartın təsviri və strukturu, onun hazırlanması və verilməsinə dair prosedurlar müasir informasiya kommunikasiya texnologiyalarının köməyi ilə əyani nümayiş etdirilib, qarşıda duran vəzifələrə, o cümlədən kartda zəruri informasiyaların əks olunması, regional və yerli ədliyyə orqanlarında müvafiq texniki avadanlıqla təchizat və zəruri infrastrukturun yaradılması, proqram təminatının formalaşdırılması, beynəlxalq təcrübənin öyrənilməsi və s. ilə bağlı tapşırıqlar verilib.

Ədliyyə orqanlarında və məhkəmələrdə insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması daim diqqətdə saxlanılaraq bu sahədə görülən məqsədyönlü işlər, o cümlədən vətəndaşların qəbulu qaydasının təkmilləşdirildiyi, səyyar qəbulların mütəmadi xarakter daşıdığı, müasir informasiya kommunikasiya texnologiyalarının və elektron xidmətlərin geniş tətbiqi, ərizə və şikayətlərə təxirəsalınmadan baxılıb həlli məqsədilə nazirlikdə “Qaynar xətt”lərin yaradıldığı qeyd olunub. Kollegiyada yeniyetmələrin cinayət işləri üzrə ədalət mühakiməsinin həyata keçirilərkən hüquqlarının müdafiəsinin gücləndirilməsi, psixoloji aspektlərin nəzərə alınması, yeni yanaşmaların tətbiqi, məhkəmədə belə işlərə baxılması qaydasının müasir informasiya kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə təkmilləşdirilməsi, yuvenal ədliyyə sahəsində təlimlərin keçirilməsi və s. ilə bağlı tədbirlər müəyyən olunub.

# “E-gov Fikir Bankı"

"Elektron Hökümət" portalı yaradıldığı ilk gündən əsas səhifədə "Fikir Bankı" adlı xüsusi bölmə yerləşdirilmişdir. Bu "E-gov Fikir Bankı" "Elektron İdarəçilik" prinsipini əhatə edən təkliflərin, iradların vətəndaşlar tərəfindən bildirilməsi üçün nəzərdə tutulub. Bu bölmənin əsas funksiyası istifadəçi yönümlü xidmətlərin hazırlanmasında ictimai rəyin nəzərə alınmasına yönəlib. "Fikir Bankı" vasitəsilə vətəndaşlar ictimai maraq dairəsində olan xidmətləri, həmçinin mövcud xidmətlərin təqdim olunma formatı ilə əlaqədar irad, təkliflərini bildirə bilərlər.

Bu günə qədər "E-gov Fikir Bankı"-na təxminən 84 təklif daxil olub. Qəbul edilən təkliflərin ətraflı öyrənilərək reallaşdırılması istiqamətində işlər görülür. Adərən "Elektron İdarəçilik" prinsipindən kənar olan və başqa dövlət qurumlarının səlahiyyətlərinə aid olan təkliflər ləğv edilir.

"Elektron Hökümət" portalının ilk versiyası ilə hazırki versiyası həm də istifadəçi mərkəzli olması ilə fərqlənir. Portalın istifadəsi artıq daha əlverişlidir, həmçinin portalda istər "Elektron Hökümət" portalı, istərsə də qurumlar ilə əlaqələrin yaradılması üçün xüsusi əks əlaqə qutuları yerləşdirilmişdir. Bununla da vətəndaşlar istədikləri elektron xidmətlə bağlı irad və təkliflərini aidiyyatı dövlət qurumuna ünvanlaya və cavab ala bilirlər.

Əminliklə deyə bilərik ki, "Elektron Hökümət" portalının işi sırf vətəndaşların rəqəmsal mühitdə ictimai-iqtisadi məsələlərə münasibətləri, ictimai rəy üzərində qurulub və görülən işlər vətəndaş-hökümət münasibətlərinin sadələşdirilməsinə xidmət edir.

www.e-gov.az

# "Elektron Hökumət" portalı öz istifadəçilərinə yeni servis təqdim edir

*"Elektron Hökumət" portalı üzərindən təqdim edilən xidmətlərin istifadəsi ilə əlaqədar vətəndaşlar tərəfindən xidmət təminatçısı ilə əks əlaqə yaradılması, təklif, şikayət və s. xarakterli müraciətlərin edilməsi, müraciətlərin xidmət təminatçısı tərəfindən cavablandırılması, xidmətfən istifadə zamanı baş verən problemlərdən vaxtında xəbər tutulması və sair üçün portalda "Əks əlaqə" və "Müraciətlər" adlı xüsusi bölmə hazırlanmışdır.*




Vətəndaşlar portalda "Müraciətlər" bölməsinə daxil olaraq (həmçinin hər bir e-xidmət səhifəsində olan "Əks əlaqə" düyməsini seçməklə) istənilən elektron xidmət ilə bağlı müraciətləri portal üzərindən xidmət təminatçısına ünvanlaya və verilən cavabları izləyə biləcəklər. Sistemdə vətəndaş ilə xidmət təminatçısı arasında passiv rejimdə dialoq aparılır və bütün yazışmalar arxivləşdirilir

Qeyd edirik ki, 1 noyabr 2014-cü il tarixdən başlayaraq sistemin tam şəkildə istismara verilməsi planlaşdırılır və həmin tarixdən sonra vətəndaşlardan daxil olan müraciətlər, onların cavablandırılması barədə aşağıdakı statistik məlumatlar online rejimdə portalda qurumlar üzrə yerləşdiriləcək və aylıq Elektron Hökumət Bülletenlərində dərc ediləcək:

- ***Dövr (ay, rüb, il və s.) ərzində daxil olan müraciətlərin sayı;***
- ***Həmin müraciətlərdən cavablandırılanların sayı;***
- ***Təkrar daxil olan müraciətlərin sayı;***
- ***Cavablandırılmayan müraciətlərin sayı;***
- ***Verilən cavablardan vətəndaşları qane edən cavabların sayı (bu vətəndaşların aldıqları cavablara portalda etdikləri qeydlə müəyyən ediləcək).***

Daxil olan müraciətləri cavablandıracaq məsul şəxslər barədə məlumatlar dövlət qurumları tərəfindən Məlumat Hesablama Mərkəzinə (MHM) siyahı şəklində təqdim olunacaq və həmin şəxslər sistemdə tanıtdırılacaq.

Eyni zamanda sistemin idarəolunması və istismarı üzrə aidiyyatı əməkdaşlar üçün MHM-də xüsusi treninqlərin keçirilməsi planlaşdırılır.

# e-imza sertifikatlarının sayı 24386 -ə çatmışdır

Rəqəmsallaşma əsrinin qabaqcıl texnologiyası olan e-imza kartlarına tələbat günbəgün artmaqdadır. "Elektron hökumət"in və elektron sənəd mübadiləsinin açarı kimi e-imza kartı təkcə sənəd imzalamaq funksiyasını yerinə yetirmir. Həmçinin, bir çox proqramların, elektron xidmətlərin giriş elementini təşkil edir. E-imza kartı ilə aparılmış proseslərin təhlükəsizliyinə, inkar edilməzliyinə tam zəmanət verilir. E-imza kartı şəxsin elektron imzası olmaqla yanaşı onun bir çox elektron proqramlardan istifadəsi üçün şəxsi açarı rolunu oynayır.

Ölkəmizdə bu sahədə aparılan cari işlər, xüsusən də əmək müqaviləsi bildirişlərinin sistemə daxil edilməsi zamanı e-imza kartından istifadə onun əhəmiyyətini bir daha ictimaiyyətə çatdırır. Bununla əlaqədar, qurumlara təqdim edilən e-imza sertifikatlarının sayı xeyli artmışdır. Cari ilin sentyabr ayına olan statistikaya əsasən bu günə qədər, dövlət qurumlarına 15310 e-imza sertifikatı, fiziki şəxslərə 5493 e-imza sertifikatı, hüquqi şəxlərə isə 3583 e-imza sertifikatı hazırlanıb təhvil verilmişdir. Ümumilikdə, 24386 e-imza sertifikatı təhvil verilmişdir və sentyabr ayı ərzində verilən sertifikatların sayı keçən ay ilə müqayisədə təxminən 1600 ədəd çoxdur.

Qeyd edirik ki, paytaxtdan kənar regionlarda da e-imza kartından istifadə xeyli artmışdır. Ayrı-ayrı dövlət qurumları tərəfindən təşkil olunmuş maarifləndirici seminarların bu sahədə müsbət rolu danılmazdır. Bu seminarların başlıca məqsədi vətəndaşlara elektron xidmətlər eləcə də, elektron imza kartı barədə məlumat vermək və onlara istifadə bacarığını aşılamaqdır.



# Vergilər nazirinin birinci müavini Natiq Əmirov: “Azərbaycanda 55 mindən çox“ Asan İmza” sertifikatı təqdim edilib”

**Azərbaycan Respublikası Vergilər nazirinin birinci müavini Natiq Əmirov Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham) Bakıda təşkil etdiyi aylıq işgüzar naharındakı çıxışı zamanı bildirib ki, bu günə qədər Azərbaycanda 55 mindən çox “Asan İmza” sertifikatı verilmiş, “Asan İmza” mobil elektron imza vasitəsilə 3,5 milyona yaxın əməliyyat həyata keçirilmişdir.**

Ölkədə “Asan İmza” sertifikatlarının verilməsi prosesi 2013-cü ilin iyul ayından etibarən başlayıb. Bu məqsədlə Vergilər Nazirliyində Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) və ölkədə fəaliyyət göstərən hər üç mobil operatorun platformaları ilə inteqrasiya edilmiş Asan Sertifikat Xidmətləri Mərkəzi (ASXM) yaradılmışdır.

# Kod-parol vasitəsilə "Elektron hökumət" portalına daxil olan istifadəçilərin sayı artmaqdadır

**"Elektron hökumət" portalı elektron xidmətlərin “bir pəncərə” prinsipi əsasında təşkilinin təmin edilməsi üçün öz üzərinə düşən öhdəlikləri mərhələli şəkildə icra edir. Hazırda portala 41 qurum üzrə 373 e-xidmət inteqrasiya edilmişdir. Portalın istifadəsini rahat etmək, eyni zamanda istifadəçilərin irad və təkliflərinin öyrənilərək nəzərə alınması məqsədilə "Mənim xidmətlərim", "Əks Əlaqə", "Məktub Yaz", "Əlilliyi olan Şəxslər üçün Onlayn Müraciət", "E-gov Fikir Bank" kimi istifadəçi yönümlü servislər portalda əhalinin istifadəsinə verilmişdir.**

Portal üzərindən təqdim edilən xidmətlərdən yararlanmaq üçün bir neçə autentifikasiya vasitələri seçilmişdir və digər vasitələrlə yanaşı bir qisim istifadəçilər əldə etdikləri kod-parol vasitəsilə portaldan istifadə edirlər.

**Bu günə qədər:**

**BAKI** üzrə 53851 vətəndaş kod-parol əldə etmişlər ki, onlardan 49554-ü onlayn qeydiyyatdan keçmiş, 4297-i qeydiyyat mərkəzlərindən kod-parol almışlar;

**SUMQAYIT** şəhəri üzrə ümumilikdə 7185 vətəndaş qeydiyyatdan keçmiş, onlardan 6796-sı onlayn qeydiyyatdan keçərək kod-parol əldə etmiş, qalan 389-u qeydiyyat mərkəzlərindən kod-parol almışlar;

**GƏNCƏ** şəhəri üzrə isə 6671 nəfər onlayn qeydiyyatdan keçmiş, 274 nəfər qeydiyyat qeydiyyat mərkəzlərindən kod-parol almışlar.

Bu günə qədər ümumilikdə, 122701 istifadəçi qeydiyyatdan keçmiş, onların 114211 nəfəri onlayn qeydiyyatdan keçmiş, 8490 nəfəri isə qeydiyyat mərkəzlərindən kod-parol almışlar.




“Elektron Hökumət" portalı e-xidmətlərin çeşidinin və keyfiyyətinin yüksəldilməsi ilə yanaşı rahat, istifadəçi-yönümlü interfeys əldə etmək üçün hazırda bir sıra innovativ metodlar üzərində işləməkdə davam edir.

www.e-gov.az

# "Mənim Elektron Hökumətim" - məqalə və video material müsabiqəsi elan olundu

***3 oktyabr 2014-cü il tarixində "Elektron hökumət" portalının operatoru – Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi "Mənim Elektron Hökumətim" adı altında "Ən yaxşı məqalə" və "Ən yaxşı video material" olmaqla 2 (iki) nominasiya üzrə müsabiqənin şərtlərini BMM-də keçirilən mətbuat konfransında elan etdi. Qeyd edək ki, 3 oktyabr tarixində elan edilən müsabiqə noyabrın 10-dək aparılacaq.***



**Təqdimatda Rabitə və Yüksək Texnologiyalar Nazirinin müavini Elmir Vəlizadə, MHM-nin direktoru Nail Mərdanov, Xəzər Universitetinin rektoru Hamlet İsaxanlı, Elektron Hökumət mövcud vəziyyət və gözləntilər mövzusunda çıxış etdi. Sonra isə müsabiqənin şərtləri elan olundu.**

**MÜSABİQƏNİN MƏQSƏDİ VƏ VƏZİFƏLƏRİ**

- Dövlət orqanlarının təqdim etdiyi elektron xidmətləri geniş kütləyə çatdırmaq;
- Elektron hökumət portalının (e-gov.az) populyarlığını artırmaq;
- Yeni elektron xidmətlərin yaradılmasında səmərəli təkliflərdən yararlanmaq;
- Portalın fəaliyyətinin təkmilləşdirilməsi üçün çatışmazlıqları araşdırmaq;

**Müsabiqə aşağıdakı mövzuları əhatə etməlidir:**

- Elektron Hökumət nədir?
- Elektron Hökumət portalına nə üçün ehtiyacımız var?
- Ölkənizdə Elektron Hökumət necə fəaliyyət göstərir?
- Elektron Hökumətin cəmiyyət üçün faydaları.

**Müsabiqəyə təqdim olunmuş yazılarda üstünlük veriləcək;**

- Materialların ümumən mövzunu, konkret olaraq nəzərdə tutulan istiqaməti dolğun əhatə etmə səviyyəsi;
- Faktlardan istifadə xüsusiyyətləri və araşdırmanın keyfiyyəti;
- İfadə vasitələrinin zənginliyi;
- Oxucu üçün informasiyalılıq dərəcəsi;
- Qabaqcıl dünya təcrübəsi ilə müqayisə;

**MÜSABİQƏNİN TƏLƏBLƏRİ:**

**1.** Müsabiqədə jurnalistlərlə yanaşı, elmi işçilər, mütəxəssislər və elektron hökumətlə maraqlanan 18 yaşından yuxarı şəxslər iştirak edə bilər.
**2.** Müsabiqədə iştirak etmək istəyənlər ilk növbədə www.e-gov.az portalında qeydiyyatdan keçməli, məqaləni və ya video materialları göndərərkən qeydiyyat nömrəsini e-məktuba əlavə etməlidir. Qeydiyyat 2014-cü il noyabrın 10-dək aparılacaq.
**3.** Hər iştirakçı müsabiqəyə yalnız bir yazı və bir video süjet təqdim edə bilər.
**4.** Yazı həftədə ən azı bir dəfə dərc olunan mətbu orqanda və ya informasiya saytında dərc edilməlidir.
**5.** Hazırlanan video materiallar isə müsabiqəyə təqdim olunana qədər heç bir KİV-də nümayiş olunmamalıdır.
**6.** Video 1 -5 dəqiqəlik olmalıdır.
**7.** Məqalə 8000 -14000 simvol həcmində olmalıdır.
**8.** Müsabiqə üçün dil və janr məhdudiyyəti nəzərdə tutulmur;
**9.** Hər bir məqalə və süjet də "Elektron hökumət" portalının ünvanının (www.e-gov.az) göstərilməsi əsas şərtlərdəndir.
**10.** Qiymətləndirmə zamanı iştirakçının "Elektron hökumət" portalından istifadə fəallığını, bu sahədə mövcud olan materiallara, xarici mənbələrə istinadları nəzərə alınacaqdır.
**11.** Müsabiqə üçün yazılmış məqalələr və video süjetlər bu ünvana göndərilməlidir - **musabiqa@rabita.az**

**MÜSABİQƏ HANSI MƏRHƏLƏLƏRDƏN İBARƏTDİR?**

Müsabiqə "Ən yaxşı məqalə" və "Ən yaxşı video material" olmaqla 2 (iki) nominasiya üzrə oktyabrın 3-dən, noyabrın 10-u tarixinə qədər keçiriləcək. İştirakçılar məqaləsini müəyyən qəzet, jurnal və ya elektron KİV-də dərc etdirməli, məqalə və süjetin internet ünvanını Təşkilat Komitəsinə (**musabiqa@rabita.az**) göndərməlidir. Məqalələrin dərc olunma tarixi qeydiyyat tarixindən sonrakı tarixə uyğun olmalıdır. Yazı və videolar RYTN tərəfindən müəyyən edilmiş peşəkar münsiflər tərəfindən qiymətləndiriləcək. Müsabiqənin nəticələri "Elektron hökumət" portalında dərc olunacaq.

**MÜSABİQƏNİN MÜKAFAT FONDU:**

| ***"Ən yaxşı məqalə" üzrə*** | ***"Ən yaxşı video material" üzrə*** |
|---|---|
| **1-ci** yer - **2500** manat | **1-ci** yer - **2500** manat |
| **2-ci** yer - **1500** manat | **2-ci** yer - **1500** manat |
| **3;4;5** yer – **noutbuk** | **3;4;5** yer - **noutbuk** |

Bundan başqa müsabiqədə iştirak edən hər bir iştirakçıya e-imza vəsiqəsi və kart oxuyucu təqdim ediləcək.
Müsabiqə barədə daha geniş məlumatları ***www.e-gov.az*** Elektron hökumət portalından, eləcədə RYTN-nin Mətbuat xidmətindən əldə etmək olar.
**Əlaqə telefonları:** 157, (012) 5984271.
**Faks:** (012) 565 14 52.

# Dövlət qurumlarında informasiya ehtiyatlarının və sistemlərinin monitorinqi aparılır



"Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi haqqında Əsasnamə"nin 3.1.56-cı yarımbəndinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 may 2010-cu il tarixli 89 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət informasiya ehtiyatlarının reyestrinin aparılması qaydaları haqqında Əsasnamə"nin 4.1-ci yarımbəndinin tələblərinə əsasən, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Məlumat Hesablama Mərkəzi (MHM) tərəfindən dövlət qurumlarında müvafiq monitorinqlərin keçirilməsinə başlanılıb. Monitorinqin keçirilməsində başlıca məqsəd dövlət reyestrinə daxil edilmiş informasiya sistemlərində (İS) fərdi məlumatların toplanılması, işlənilməsi və mühafizəsinin "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə, habelə məlumatların və onların işlənmə üsullarının İS-lərinin bəyan olunmuş məqsədlərinə, eyni zamanda İS-lərinin "İnformasiya sistemlərinin və ehtiyatlarının, elektron xidmətlərin "Elektron hökumət" portalına qoşulması üçün Texniki Tələblər"ə uyğunluğunun yoxlanılmasıdır.

Artıq MHM-in işçi qrupu tərəfindən Dövlət Sosial Müdafiə Fondunda, İqtisadiyyat və Sənaye Nazirliyində, Dövlət Miqrasiya Xidmətində və Ədliyyə Nazirliyində müvafiq informasiya sistemlərinin monitorinqləri keçirilimiş və həmin qurumların mülkiyyətçisi olduğu İS-lərinin mövcud qanunvericiliyin tələblərinə uyğunluğu yoxlanılmışdır. Digər dövlət qurumlarında analoji monitorinqlərin keçirilməsi tərtib edilmiş qrafikə uyğun planlaşdırılır.

Monitorinq zamanı qurumların İS-ləri və ehtiyatları yerində öyrənilir və monitorinqlər başa çatdıqdan sonra digər dövlət qurumları tərəfindən bir sıra elektron xidmətlərin göstərilməsi üçün həmin quruma məxsus İS-lərinin "Elektron hökumət"portalına qoşulması və uyğun servislərin verilməsi və eyni zamanda əksinə, həmin qurumun digər dövlət qurumlarının uyğun servislərinə qoşulması üçün konkret təkliflər hazırlanacaq.

Monitorinqlərin əsas məqsədi həm də, informasiya ehtiyatlarının qanunvericiliklə müəyyən edilmiş şəkildə toplanılması, mühafizə edilməsi və digər dövlət qurumlarına "bir pəncərə" prinsipi əsasında ötürülməsinə nəzarət, çatışmazlıqların müəyyən edilməsi və onların aradan qaldırması üçün təkliflərin və tələblərin hazırlanmasından ibarətdir.




www.e-gov.az

## 01.09.2014 – 30.09.2014-cü il dövrü ərzində "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı:

| № | Xidmətin adı | Təchizatçının adı | Say |
|---|---|---|---|
| 1 | Əmək müqaviləsi bildirişlərinin qeydiyyata alınması və bu barədə işəgötürənə məlumatın verilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | **1042712** |
| 2 | Telefon nömrəsi üzrə axtarış | RYTN | 73390 |
| 3 | Əmək müqaviləsi bildirişləri barədə məlumatların işçilər tərəfindən əldə edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 73055 |
| 4 | Rabitə və kommunal xidmət haqlarının internet vasitəsilə ödənilməsi | RYTN | 19643 |
| 5 | Sığortaolunanın onlayn uçota alınması | Dövlət Sosial Müdafiə Fondu | 16482 |
| 6 | Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi | TQDK | 15854 |
| 7 | Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 9481 |
| 8 | Sığortaolunanlara məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 8242 |
| 9 | Sığortaedənin uçot nömrəsinin öyrənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 7046 |
| 10 | Mobil cihazların IMEI kodunun yoxlanılması | RYTN | 6391 |
| 11 | Namizədlərin elektron ixtisas seçimi ərizələrinin onlayn qəbulu | TQDK | 5450 |
| 12 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 3740 |
| 13 | E-İmza | RYTN | 2991 |
| 14 | Vətəndaşa aid fərdi məlumatlar üzrə elektron arayışın verilməsi | Elektron Hökumət Portalı | 2649 |
| 15 | Uşağın anadan olmasına görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 2239 |
| 16 | AzDataCom internet xidmətinə qoşulma üçün sifariş | RYTN | 2053 |
| 17 | Məcburi dövlət sosial sığorta vəsaitlərinin onlayn ödənilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1770 |
| 18 | Pensiyaçıya məlumatların verilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1483 |
| 19 | Uşağın üç yaş tamam olanadək ona qulluq etməyə görə müavinətlə bağlı haqq-hesab cədvəlinin təqdim edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1419 |
| 20 | Portal üzərindən istifadəçi qeydiyyatı | Elektron Hökumət Portalı | 1402 |

## 01.10.2014-cü il tarixə Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə daxil edilmiş məlumatlar barədə

*bütün qurumlar üzrə*

| Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|
| 74 | 148 | 222 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir.

## 30.09.2014 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 15310 | 3583 | 5493 | 24386 |

## 2014-cü ilin sentyabr ayı ərzində bütün qurumlar üzrə "Elektron hökumət" portalı tərəfindən təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat:

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 6 | 1116873 |
| 2 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 43 | 111997 |
| 3 | Dövlət Sosial Müdafiə Fondu | 17 | 54996 |
| 4 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 14 | 22121 |
| 5 | Əmlak Məsələləri Dövlət Komitəsi | 39 | 7051 |
| 6 | Elektron Hökumət Portalı | 3 | 5134 |
| 7 | Daxili İşlər Nazirliyi | 2 | 2167 |
| 8 | "Azərsu" ASC | 2 | 793 |
| 9 | Vergilər Nazirliyi | 6 | 770 |
| 10 | Təhsil Nazirliyi | 2 | 763 |
| 11 | "AzərEnerji" ASC | 2 | 733 |
| 12 | Səhiyyə Nazirliyi | 17 | 712 |
| 13 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 13 | 654 |
| 14 | Ədliyyə Nazirliyi | 12 | 619 |
| 15 | Mərkəzi Seçki Komissiyası | 7 | 587 |
| 16 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 2 | 511 |
| 17 | Dövlət Gömrük Komitəsi | 5 | 449 |
| 18 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 376 |
| 19 | Dövlət Statistika Komitəsi | 5 | 313 |
| 20 | Milli Arxiv İdarəsi | 2 | 249 |
| 21 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 221 |
| 22 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 17 | 159 |
| 23 | Nəqliyyat Nazirliyi | 4 | 131 |
| 24 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 108 |
| 25 | Satınalmalar üzrə Dövlət Agentliyi | 8 | 88 |
| 26 | Kənd Təsərrüfatı Nazirliyi | 19 | 74 |
| 27 | Dövlət Miqrasiya Xidməti | 1 | 70 |
| 28 | Dövlət Sərhəd Xidməti | 2 | 59 |
| 29 | Dövlət Dəniz Administrasiyası | 18 | 57 |
| 30 | Xarici İşlər Nazirliyi | 1 | 57 |
| 31 | Fövqəladə Hallar Nazirliyi | 3 | 55 |
| 32 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 53 |
| 33 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 51 |
| 34 | Müəllif Hüquqları Agentliyi | 5 | 50 |
| 35 | Baş Prokurorluq | 1 | 49 |
| 36 | Energetika Nazirliyi | 6 | 45 |
| 37 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 43 |
| 38 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 1 | 41 |
| 39 | Gənclər və İdman Nazirliyi | 4 | 40 |
| 40 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 11 | 34 |
| 41 | Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 2 | 29 |
| 42 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 19 |
| | **CƏMİ** | **333** | **1329401** |

www.e-gov.az

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmətlərin portala inteqrasiyası barədə

# MƏLUMAT

*01.10.2014*

| Sıra № | DÖVLƏT QURUMUNUN ADI | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 1 | 1 | 3 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 24 | 24 |
| 3 | Ədliyyə Nazirliyi | 18 | 12 | 18 | 14 | 13 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 3 | 3 | 3 | 3 | 3 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 8 | 3 |
| 6 | İqtisadiyyat və Sənaye Nazirliyi | 7 | 7 | 7 | 11 | 7 |
| 7 | Vergilər Nazirliyi | 60 | 49 | 52 | 54 | 53 |
| 8 | Energetika Nazirliyi | 8 | 6 | 6 | 7 | 5 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 6 | 11 | 1 | 0 |
| 10 | Kənd Təsərrüfatı Nazirliyi | 14 | 12 | 19 | 21 | 14 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 18 | 18 | 22 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 5 |
| 13 | Təhsil Nazirliyi | 8 | 2 | 3 | 27 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 31 | 31 | 32 | 31 |
| 15 | Rabitə və Yüksək Texnologiyalar Nazirliyi | 16 | 10 | 34 | 27 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 1 | 1 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 27 | 25 | 28 | 29 | 29 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 5 | 5 | 5 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 6 | 0 | 0 | 1 | 1 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 13 | 13 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 21 | 11 | 12 | 21 | 21 |
| 31 | AR Prezidenti yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 6 | 6 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 14 | 13 | 14 | 14 | 13 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 11 | 1 | 1 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 5 | 5 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 36-1 | Alternativ və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi | 1 | 0 | 0 | 1 | 1 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 37-1 | Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | 3 | 2 | 2 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 1 | 1 |
| | **CƏMİ:** | **446** | **296** | **359** | **458** | **388** |

| | DÖVLƏT QURUMUNUN ADI | | | |
|---|---|---|---|---|
| 1 | "Meliorasiya və su təsərrüfatı" ASC | 2 | 2 | |
| 2 | "Azərsu" ASC | 2 | 3 | |
| 3 | "Azərenerji" ASC | 2 | 2 | |
| 4 | Mərkəzi Seçki Komissiyası | 6 | 9 | |
| 5 | “Elektron hökumət” portalı | 2 | 0 | |
| 6 | Baş Prokurorluq | 1 | 1 | |
| | **CƏMİ:** | **15** | **17** | |

| | | | | | |
|---|---|---|---|---|---|
| **YEKUN** | **446** | **296** | **374** | **475** | **388** |

# "Elektron hökumət" portalına daxil olanların sayı 935 230 nəfərə çatdı



ŞƏKİL 1

Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) Məlumat Hesablama Mərkəzi (MHM) "Elektron hökumət" portalına daxilolmaların növbəti statistikasını təqdim edib. Statistik uçotun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2014-cü ilin sentyabr ayının 30-a qədər portala daxil olanlar haqda toplanan məlumatlar göstərir ki, portala ümumilikdə 2,645,769 daxilolma qeydə alınıb.

Portala müraciət edənlərin ümumi sayı isə 935,230 nəfər olub. Belə ki, 935,230 nəfər ümumən 2,645,769 dəfə portala baxıb və 5,064,756 elektron xidmətə müraciət ediblər. Həmin şəxslər 10,441,045 dəfə müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 6 dəqiqə 29 saniyə olub.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqla yanaşı, təkrarən portala müraciət edənlərin də kütlə nisbəti artmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 35.4%-ni yeni istifadəçilər, 64.6%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün sentyabr ayının statistikasına nəzər salsaq, bu dövrdə portala 488,692 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 115,562 nəfər olub. Həmin şəxslər 3,209,062 olmaqla, müxtəlif səhifələrə keçid ediblər, 1,329,401 xidmətə müraciət edib və portala sərf etdikləri vaxt ortalama 12 dəqiqə 06 saniyə təşkil edib. Avqust ayı ərzində portala müraciət edənlərin 16.9%-ni yeni istifadəçilər, 83.1%-ni isə təkrar müraciət edənlər təşkil edib.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod-parol alan istifadəçilərin sayı bu gün 122,559-ə çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər. Portal üzərindən təqdim edilən xidmətlərin sayı 374 olub.



ŞƏKİL 2

© 2014 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az